**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A. A. BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ZAUR QAFFAR OĞLU SƏLİMOV**

# AZƏRBAYCAN RESPUBLİKASINDA REGİONLARIN İNKİŞAF STRATEGİYASI (1991-2008)

**İxtisas: 5503.02 - Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2014**

**Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın müasir tarixi" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:**
tarix üzrə elmlər doktoru, professor **O.B.Sultanov**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru **Ə.Q.Qasımov**
tarix üzrə fəlsəfə doktoru **B.O.Əziz**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası**

Müdafiə AMEA A. A. Bakıxanov adına Tarix İnstitutunun nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələrini almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "_22__" _09___2014-cü il tarixli iclasında, saat "___"-də keçiriləcəkdir.

**Ünvan:** AZ – 1143, Bakı şəhəri, H. Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "___"_____________2014-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə fəlsəfə doktoru:** **C.Ə.Bəhramov**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin 80-ci illərində dünyada mühafizəkar qüvvələrin fəallaşması, Sovet İttifaqında hələ həmin əsrin 70-ci illərində iqtisadi vəziyyətin dəyişməsinə vaxtında düzgün siyasi qiymət verməmək üzündən başlanan durğunluq siyasi, sosial-iqtisadi və mənəvi böhranla əvəz olundu. Həm də kommunist rejiminin mövcudluğu ilə barışmaq istəməyən Qərbin, ABŞ başda olmaqla apardığı "Soyuq müharibə", iki sistemin mübarizəsi şəraitinə uyğunlaşmağı bacarmayan, insan psixologiyasına uyğun gəlməyən addımlar atan, Əfqanıstana müdaxilə edən və öz vətəndaşları olan xalqlara divan tutan təcavüzkar dövlət kimi dünya ictimaiyyətinin gözündən düşən Sovet İttifaqı 1991-ci ildə süqut etdi. SSRİ-nin dağılması nəticəsində digər postsovet respublikaları kimi Azərbaycan Respublikası da özünün dövlət müstəqilliyini bərpa etdi. Dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası ölkə həyatının digər sahələrində olduğu kimi iqtisadi sahədə də yeni və həll edilməsi mühüm əhəmiyyət kəsb edən problemlərlə üz-üzə qaldı. Sovet İttifaqının iqtisadiyyatı üzvi surətdə bir-biri ilə bağlı olan vahid bir orqanizmə bənzədiyinə görə milli respublikalar iqtisadi cəhətdən bir-birindən qarşılıqlı surətdə asılı vəziyyətdə idilər və burada birinin iştirakı olmadan digərinin fəaliyyəti mümkün deyildi. SSRİ-nin süqutu nəticəsində ilk dövrlərdə digər postsovet ölkələri ilə iqtisadi əlaqələrin pozulması, ölkədəki müəssisələrin tam gücü ilə işləməməsi, Azərbaycan Respublikasının iqtisadi həyatını iflic vəziyyətinə salmışdı. SSRİ-nin tərkibindəki keçmiş milli respublikalardan fərqli olaraq Azərbaycan Respublikası üçün qondarma Dağlıq Qarabağ probleminin yaradılması, Ermənistanın Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları vəziyyəti daha da kəskinləşdirdi. Dövləti idarə edənlərin səriştəsizliyi üzündən tez-tez baş verən hakimiyyət dəyişiklikləri ölkədə siyasi sabitliyi pozmuşdu. Bütün bunlar isə ölkənin müstəqilliyi üçün təhlükə yaratmaqla yanaşı, iqtisadi böhrandan xilas olmaq yollarını tapmaq imkanlarını da məhdudlaşdırdı. 1993-cü ilin yayında Heydər Əliyevin Azərbaycan Respublikasında hakimiyyətə yenidən qayıdışı ilə respublikanın dövlət müstəqilliyinin qorunub saxlanılması və ölkənin gələcək inkişafının təmin edilməsi istiqamətində dönüş başlanmış oldu.

İqtisadi inkişaf sahəsində nailiyyətlər qazanmış ölkələrin tarixi təcrübəsi göstərir ki, bazar iqtisadiyyatına keçid dövrünü yaşayan ölkələrdə iqtisadi inkişafın tənzimlənməsi, iqtisadiyyatda mövcud olan dağıntının aradan qaldırılması ilk növbədə sahibkarlığın inkişaf etdirilməsinə şərait yaradılmasını, bazar iqtisadiyyatının qanunvericilik bazasının formalaş-

masını, ölkənin təbii imkanlarından, mövcud potensialından səmərəli istifadə olunmasını tələb edir. Qeyd olunan bu amillər Azərbaycan Respublikasında da əsaslı islahatların aparılmasını zəruri edirdi.

Davamlı iqtisadi inkişafın təmin olunması mərkəzlə yanaşı regionlarda da iqtisadi məsələyə ciddi fikir verilməsini tələb edirdi. Bu, ölkədə tarazlı inkişafın, əhalinin işlə təminatının, onun maddi rifahının yaxşılaşmasının mühüm şərti idi. Regional inkişaf üzrə proqramların dövlət səviyyəsində hazırlanması və həyata keçirilməsi həm də regionların kompleks sosial-iqtisadi inkişafının, sosial ədalət prinsipinin təmin edilməsinin mühüm vasitəsi hesab edilə bilərdi. Bu istiqamətdə görülmüş işlər içərisində "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycan tarix elmində regionların inkişafı probleminin indiyə kimi xüsusi tədqiqat obyektinə çevrilməməsi mövzunun aktuallığını, onun öyrənilməsinin zəruriliyini tarix elmi qarşısında bir vəzifə kimi qoyur.

Mövzunun aktuallığını, onun tədqiq olunmasını müstəqillik illərində, bütövlükdə ölkə iqtisadiyyatında, o cümlədən regionların inkişafında keçilmiş yola nəzər salmaq, görülmüş işləri yekunlaşdıraraq qiymətləndirmək məsələləri də vacib edir. Tarixi təcrübənin öyrənilməsi 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində ölkə iqtisadiyyatında mövcud olan böhran və geriləmənin səbəblərini aşkara çıxarmağa, iqtisadi dağıntının aradan qaldırılması məqsədi ilə həyata keçirilən islahatların nəticələrinin dəyərləndirilməsi əsasında həm də gələcəkdə iqtisadi inkişaf proqramlarının hazırlanmasına kömək edir.

**Dissertasiyanın xronoloji çərçivəsi**. Dissertasiyanın xronoloji çərçivəsi 1991-2008-ci illəri əhatə edir. Azərbaycan Respublikası 1991-ci ildən müstəqil dövlət kimi fəaliyyət göstərdiyinə görə dissertasiyanın xronoloji çərçivəsinin başlanğıcı bu ildən götürülmüşdü. 2004-2008-ci illəri əhatə edən regionların sosial-iqtisadi inkişafına aid xüsusi dövlət proqramı qəbul edildiyindən dissertasiyada 2008-ci ilə qədər bu sahədə həyata keçirilən tədbirləri təhlil edib ümumiləşdirmək qarşıya məqsəd kimi qoyulmuşdu. Dissertasiya yazılarkən xronoloji çərçivəyə əməl edilmişdi.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işi zəngin mənbəşünaslıq bazasına söykənir. Tədqiqat işi Azərbaycan və rus dillərində olan çoxsaylı mənbələrin məlumatlarının tənqidi təhlili əsasında yazılmışdır. Tədqiqat işində əsaslandığımız ilk mənbələrdən biri 1995-ci ildə ümumxalq referendumu yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasıdır. İqtisadi islahatların qanunvericilik bazasının hazırlanmasında ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin bu məsələ

ilə əlaqədar çıxışları, nitqləri, müsahibələri mənbə kimi tədqiqat zamanı istifadə edilmişdi. Həmçinin Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunvericilik aktları, Nazirlər Kabinetinin qərarlarından, onun iqtisadi məsələlərə həsr edilmiş iclas və müşavirələrinin materiallarından, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi "Prezident kitabxanası" elektron materialları məcmuəsindən də bir mənbə kimi yararlanılmışdı.

Tədqiqatda Azərbaycan Respublikası Dövlət Statistikası Komitəsinin materiallarından, internet saytlarından, Azərbaycan Respublikasında və digər MDB ölkələrində nəşr edilən rəsmi qəzetlərdə ("Xalq", "Azərbaycan", "Respublika", "Бакинский рабочий", "Независимая газета" ) və s. bu məsələ ilə əlaqədar verilən yazılardan da faydalanmağa çalışmışıq.

**Mövzunun öyrənilmə vəziyyəti**. Azərbaycan Respublikasının milli tarixşünaslığında regionların inkişafı problemi məhz bu dissertasiya işində xüsusi tədqiqat obyekti kimi götürülmüşdü. Tədqiqat zamanı qeyd edilən problemin ayrı-ayrı məsələləri ilə bağlı bir sıra əsərlərdə də müəyyən məlumatlara rast gəlinmişdi.

Tədqiq olunan problemlə baglı məlumatlar Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçiddə xüsusi xidmətləri olan ulu öndər Heydər Əliyevin[1], regionların sosial-iqtisadi inkişafı sahəsində Heydər Əliyev siyasətini davam etdirən hazırkı Prezident İlham Əliyevin[2] əsərlərində öz geniş əksini tapmışdı.

Modernləşdirmə strategiyasının ayrı-ayrı məsələləri, həmçinin sosial-iqtisadi islahatların keçirilməsində dövlətin rolu məsələsi böyük siyasətçi, filosof alim R. Mehdiyevin[3] əsərlərində geniş işıqlandırılmışdı. Böyük alim-siyasətçi Azərbaycan Respublikasında islahatlar tarixini səciyyələndirərək onu dörd mərhələyə bölür; 1) XX əsrin 70-80-ci illəri; 2) 80-ci illərin ikinci yarısı; 3) 1991-1993-cü illər; 4) 1993-cü ildən sonra. O, göstərir ki, məhz sonuncu dövrdə Azərbaycan dövlətçiliyi özünün yenidən formalaşması mərhələsinə qədəm qoymuşdu.

Tədqiq olunan problemlə bağlı müəyyən məsələlər, xüsusilə Heydər Əliyevin fəaliyyəti illərinə aid faktlar 7 cildlik Azərbaycan tarixinin 7-ci cildində də verilmişdi.

---

1 Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. 45 cilddə, Bakı, Azərnəşr. 2014

2 Əliyev İ. Каспийская нефть Азервайджана. Moskva, Известия, 2003, 712 c.

3 Mehdiyev R. Ə. Azərbaycan tarixi, irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001, 273 s.

AMEA-nın müxbir üzvi Yaqub Mahmudovun[1] kitabında da problemə dair müəyyən məsələlərə rast gəlirik.

Bu problemi tarixi baxımdan araşdıran tarixçilər arasında T.B.Qaffarov,[2] xüsusilə fərqlənir. Onun əsərlərində zəngin faktiki materiallar əsasında 90-cı illərdə keçirilən iqtisadi islahatlar siyasi hadisələrlə əlaqə kontekstində tarixi səpgidə dərindən açıqlanmışdı. Müəllif 90-cı illərin əvvəllərində ölkədə hökm sürən iqtisadi və siyasi böhranın səbəblərini göstərmiş, ölkədə sosial-iqtisadi islahatların keçirilməsində, Azərbaycanın neft strategiyası məsələsində Heydər Əliyevin xidmətlərini xüsusi qeyd etmişdi. Onun əsərləri Azərbaycan Respublikasının XX əsrin 90-cı illəri tarixini öyrənənlər üçün qiymətli mənbələrdən biridi. Bütün bunlarla bərabər qeyd etmək vacibdi ki, T.B. Qaffarov ancaq XX əsrin 90-cı illərini ümumi şəkildə tədqiq etmişdi. Bu dissertasiyada isə həm XX əsrin 90-cı illəri, həm də XXI əsrin səkkiz ilində baş verən regionların sosial-iqtisadi inkişaf tarixi məsələsi tarixi aspektdə ayrıca tədqiqat obyekti kimi seçilmişdi.

XX əsrin ikinci yarısında Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına həsr olunan maraqlı tədqiqatlardan biri də İbrahim Zeynalovun[3] əsəridi. Zəngin faktlar əsasında yazılmış bu əsər respublikanın sosial-iqtisadi inkişaf istiqamətləri haqqında dolğun təsəvvür yaratmaqla yanaşı həyata keçirilmiş işlərin uğurlarında təşkilatçılıq və təsərrüfatçılıq məsələlərinin nə qədər əhəmiyyətli olmasını da göstərir. Müəllifin əsərində həm də dövlət müstəqilliyinin möhkəmləndirilməsi uğrunda mübarizə prosesində cəmiyyətin iqtisadi həyatındakı proseslər nəzərdən keçirilir. Bununla yanaşı qeyd etmək zəruridi ki, əsərdə regionların sosial-iqtisadi inkişafı məsələsi xüsusi tədqiqat obyekti kimi götürülməmişdi.

Problemin tədqiq edilməsində tarix elmləri doktoru İ. M. Hüseynovanın[4] əsərlərindən istifadə olunmuşdur. Ümummilli lider Heydər Əliyevin və

---

[1] Mahmudov Y. M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2003, 322 s.

[2] Qaffarov. T.B. Azərbaycan tarixi XX əsrin 80-90-cı illəri. Bakı, 1997, 141 s.
Yenə onun. Azərbaycanın ən yeni tarixi. Bakı, 2005, 275 s.
Yenə onun. Azərbaycan tarixi 1920-1991, Bakı, 1999, 280 s.

[3] Zeynalov. İ. X. Azərbaycanın sosial-iqtisadi inkişafı – XX əsrin II yarısında. Bakı, Azərnəşr, 2004, 325 s.

[4] Hüseynova İ. M. Müstəqil Azərbaycan Dövlətinin Qurucusu. Bakı, Təhsil, 2004, 472 s.
Yenə onun. Müstəqil Azərbaycan Dövlətinin yaranması və möhkəmləndirilməsi. Bakı, 2003, 426 s.
Yenə onun. Dövlətçilik naminə. Bakı, 2001, 285 s.

onun layiqli davamçısı İlham Əliyevin fəaliyyətinə həsr edilən bu əsərlərdə müəllif müstəqillik dövründə Heydər Əliyevin Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçidin qanunvericilik bazasının yaradılmasındakı rolundan, neft strategiyasından, ölkədə həyata keçirilən islahatlardan və Prezident İlham Əliyevin bu sahədəki xidmətlərindən geniş bəhs edilir. Tədqiqatçı Heydər Əliyevə həsr edilmiş monoqrafiyasında qeyd edir ki, iqtisadi islahatların həyata keçirilməsində dövlət mülkiyyətinin özəlləşdirilməsi əsas vasitə idi. Onun fikrincə ardıcıl həyata keçirilən islahatlar əhalinin rifahının yaxşılaşdırılmasını təmin etmişdi. Lakin bütün bunlarla bərabər Heydər Əliyev irsinin tədqiqatçısı İradə Hüseynova xronoloji çərçivə baxımından ancaq 2004-cü ilə qədər keçirilən iqtisadi islahatları təhlil süzgəcindən keçirmişdi. Həm də o, regionların sosial-iqtisadi inkişafı tarixi məsələsinə çox az toxunmuşdu. Bu məsələnin kompleks halında öyrənilməsi onun tədqiqat obyekti olmamışdı.

Tədqiq olunan problemlə bağlı müəyyən faktlar t.ü.e.d Əli Məmmədovun[1] monoqrafiyasında da öz əksini tapmışdı. Əli Məmmədovun qeyd olunan əsərində Azərbaycanda yaranmış ictimai-siyasi şərait geniş təhlil edilmişdi. İqtisadi strukturun yenidən qurulması və inkişaf etdirilməsi sahəsində Azərbaycan Respublikasında həyata keçirilən tədbirlər də monoqrafiyada öz əksini tapmışdı. Bununla bərabər müəllifin tədqiq etdiyi problemin xronoloji çərçivəsi 1997-ci ilə qədərki dövrlə məhdudlaşır. 1997-ci ildən sonrakı dövrdə respublikada baş verən sosial-iqtisadi dəyişikliklər, eləcə də regionların inkişaf strategiyası işıqlandırılmamışdı.

T.ü.f.d T.Xəlilova özünün “XX əsrin 90-cı illərində Azərbaycan Respublikasında iqtisadi islahatların tarixi” adlı namizədlik dissertasiyasında Azərbaycan Respublikasının neft strategiyası, ölkədə bazar iqtisadiyyatına keçid dövründə aparılan islahatların tarixi baxımdan təhlilinə xüsusi diqqət yetirmişdi. Müəllif Azərbaycan iqtisadiyyatının sabitləşməsində və gələcək inkişafında özəlləşdirmənin qaçılmaz mərhələ olmasının, sahibkarlığın rolu və onun yaranmasının əhəmiyyətinin, iqtisadi islahatların sonda əhalinin maddi və mədəni rifah halının yaxşılaşmasına xidmət etməsi məsələsinin geniş tarixi təhlilini vermişdi. Lakin, T.Xəlilova ancaq XX əsrin 90-cı illərində keçirilən islahatları tarixi baxımdan təhlil etmiş, regionların iqtisadi inkişaf strategiyası məsələsinə isə demək olar ki, çox az toxunmuşdu. Regionların sosial-iqtisadi inkişaf strategiyası və 2008-

---

Yenə onun. İlham Əliyev və Azərbaycanın milli inkişaf strategiyası. Bakı, 2004, Jurnal, №78-79

[1] Məmmədov Ə. M. Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (1980-ci illərin sonu - 1997-ci il). Bakı, 1999, Elm, 360 s.

ci ilə qədər iqtisadi inkişafdakı yeniliklər onun işində öz tədqiqini tapmamışdı. Bizim dissertasiya işinin xronoloji çərçivəsi isə 1991-ci ildən 2008-ci ilə qədər olan dövrü əhatə edir. Bundan başqa t.ü.f.d T.Xəlilovanın dissertasiya işində daha çox neft sektorunun inkişafı tarixinə xüsusi diqqət yetirilmişdi. Deməli, təkcə xronoloji çərçivə deyil, həm də tədqiqat obyekti baxımından da dissertasiyalar bir-birindən fərqlənir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra respublikada regional siyasətin dövlət səviyyəsində prioritetə çevrilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının həm iqtisadçı, həm də tarixçi alimləri regionların sosial-iqtisadi inkişaf məsələləri üzrə geniş tədqiqat işləri aparmağa başlamışdılar. Azərbaycanın iqtisadçı alimlərindən A.A.Nadirov,[1] Z.Səmədzadə,[2] Ş.M.Muradov,[3] V.Novruzov,[4] Ç.Abbasov,[5] C.Nuriyev[6] və başqaları tərəfindən regional iqtisadiyyatın müxtəlif problemlərinə aid çoxsaylı elmi əsərlər yazılmışdı. Qloballaşma problemi, sahibkarlığın formalaşmasının dövlətin strateji məsələsi olması və digər məsələlər akademik, iqtisadçı alim Z.Səmədzadənin əsərlərində də çox ətraflı işıqlandırılmışdı. Ziyad Səmədzadənin ümummilli lider Heydər Əliyevə həsr edilmiş "Böyük yolun mərhələləri" əsəri regionların sosial-iqtisadi inkişafını öyrənmək baxımından çox dəyərlidi. Müəllif əsərdə XX əsrin 60-cı illərindən başlayaraq 2004-cü ilə qədər Azərbaycan Respublikası iqtisadiyyatının inkişaf mərhələlərini tədqiq etmiş, Heydər Əliyevin misilsiz xidmətlərini dəyərli faktlara söykənərək nəzərə çatdırmışdı. Doqquz bölmədən ibarət olan bu əsərin III, IV bölmələrində Azərbaycan Respublikasının iqtisadi sisteminin formalaşması, dayanıqlılığı və inkişaf strategiyasının yeni reallıqları və perspektivləri üzərində geniş dayanmış, Azərbaycan Respublikasının ən yeni iqtisadi tarixində Heydər Əliyevin rolunu xüsusi nəzərə çatdırmışdı. Əsərin beşinci bölməsində isə "Biz xalqla birlikdə Azərbaycanı inkişaf etdirəcəyik, ölkəmizi varlı, qüdrətli dövlətə çevirəcəyik" devizini əsas tutan hazırkı Prezident İlham Əliyevin xidmətlərindən bəhs edilir. Lakin bu əsər tarixi aspektdə yazılmamış, həmçinin burada 2004-2008-ci illərdə Azərbaycan

---

[1] Nadirov A.A. Azərbaycan iqtisadiyyatı. Bakı, 2003, 341 s.
Yenə onun. Müstəqil Azərbaycanın iqtisadiyyatının inkişaf məsələləri. Bakı, 2001, Elm, 451 s.

[2] Самедзаде З.Ə. Этапы большоге пути. Баку, Нурлар , 2004, 936 s.

[3] Muradov Ş.M. İnsan potensialı, əsas meyllər, reallıqlar, problemlər. Bakı, 2004, 660 s.

[4] Novruzov V. İnkişaf və tərəqqinin Heydər Əliyev modeli. Bakı, 2004, Azərnəşr, 287 s.

[5] Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı, 2005, Elm, 252 s.

[6] Nuriyev C. Siyasi sabitlik və aqrar islahatlar. Bakı, 2006, 252 s.

Respublikasının regional sosial-iqtisadi inkişaf proqramının necə tarixi ardıcıllıqla həyata keçirilməsi məsələsi tam öz əksini tapmamışdı. İqtisadçıların əksəriyyəti keçid dövrünün islahatlarını, regionların sosial-iqtisadi inkişafının tarixi problemlərini təhlil edərək onu xalq təsərrüfatının özəlləşdirilməsi, neft sənayesinin dövlətin prioritet məsələsi kimi ortaya çıxması, maliyyə islahatlarının keçirilməsi ilə əlaqələndirirlər. C.Cəfərov,[1] A.Abbasov və İ.Əsgərov,[2] İ.Əliyev,[3] A.K.Ələsgərov,[4] A.Verdiyev,[5] R.Həsənov,[6] T.A.Quluyevin[7] əsərləri bu baxımdan çox əhəmiyyətlidi. Aparılan islahatların makroiqtisadi xüsusiyyətləri, sosial problemlərin həlli, iqtisadi inkişaf məsələləri respublikanın görkəmli iqtisadçılarından akademik A.Nadirov, A.Ələskərov, professor S.Haqverdiyeva tərəfindən də tədqiq edilmiş, onların əsərlərində bu problem dünya birliyi ilə inteqrasiya şəraitində öz təhlilini tapmışdı. Lakin bütün bunlarla bərabər iqtisadçı alimlər tərəfindən regionların sosial-iqtisadi inkişaf problemi nəinki tarixi səpgidə, hətta iqtisadi baxımdan belə tam tədqiq edilməmişdi.

Son illər dissertasiya müəllifinin də öyrənilən problemin tədqiqinə dair bir sıra əsərləri nəşr olunmuşdu. Bu araşdırmalar təqdim olunan dissertasiyanın əsas məzmununu təşkil etdiyinə görə onların şərhini vermək məqsədəuyğun hesab edilməmişdi.

Beləliklə, problemin tədqiqinə həsr edilmiş elmi ədəbiyyatların təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, XX əsrin 90-cı illərində və XXI əsrin ilk illərində ölkənin sosial-iqtisadi vəziyyəti, bazar münasibətlərinə keçmək üçün aparılan islahatlar, regionların sosial-iqtisadi inkişafı sahəsində dövlətimizin siyasəti bu məsələlərin öyrənilməsinə tədqiqatçı marağını artırsa da, yazılmış əsərlər problemi bütünlüklə əhatə etməmişdi. Dissertasiya haqqında danışılan problemin kompleks halında tarixi aspektdən araşdırılması baxımından yazılmış ilk elmi-tədqiqat işi kimi qiymətləndirilə bilər.

---

[1] Cəfərov C. Yeni Azərbaycan. Bakı, 2003

[2] Abbasov A. və Əsgərov İ. Keçid dövrü və yeni iqtisadi təfəkkür. Bakı, 2001, Nafta-Press, 141 s.

[3] Əliyev İ. Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı. Bakı, 1997

[4] Ələsgərovun A. K. Azərbaycan Respublikasında milli iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətləri. Bakı, 2004, 635 s.

[5] Verdiyev A. Azərbaycan Respublikasında aqrar islahatlar. Bakı, 1999

[6] Həsənov. R. Azərbaycan iqtisadiyyatının 1992-2002-ci illərdə inkişaf strategiyası. AREA "Xəbərləri" İqtisadiyyat seriyası, 1998, 83 s.

[7] Quluyev T. A. Tənzimlənən bazar iqtisadiyyatı. Bakı, 1999

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın əsas məqsədi ilkin mənbələr və tarixşünaslıq bazası əsasında regionların tarazlı inkişaf məsələsini tarixi baxımdan kompleks şəkildə öyrənməkdi. Dissertasiya işi regionların inkişafı məsələsinin kompleks şəkildə tarixi aspektdən öyrənilməsi yolunda ilk cəhddi. Qeyd olunan məqsədə nail olmaq üçün tədqiqatın aşağıdakı vəzifələri müəyyən edilmişdi.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində ölkənin sosial-iqtisadi həyatında yaranmış gərginliyin səbəblərini müəyyənləşdirmək;

Bazar iqtisadiyyatına keçid şəraitində sosial-iqtisadi islahatların mahiyyətini açmaq, islahatların qanunvericilik bazasının yaradılmasının təkmilləşdirilməsinin zəruriliyini əsaslandırmaq;

Özəl sektorun, sahibkarlığın inkişafında yeni təsərrüfatçılıq formalarının yaradılmasında dövlətin himayəsinin, tənzimləyici rolunun əhəmiyyətini göstərmək;

Ölkənin və regionların tarazlı inkişafı arasındakı qarşılıqlı əlaqəni açmaq və qiymətləndirmək;

Regionların enerji təhlükəsizliyinin təminatı, regionların iqtisadi yüksəlişi, iqtisadi inkişafın qanunvericilik bazasının möhkəmləndirilməsinin xalqın maddi rifahının yaxşılaşdırılmasının əsas amili olmasını elmi cəhətdən araşdıraraq sübuta yetirmək;

Azərbaycan Respublikasının regionlarındakı müasir durumun H. Əliyev siyasətinin davamı olduğunu əsaslandırmaq.

**Dissertasiya işinin metodologiyası.** Tədqiqat işinin metodoloji əsasını tarixilik və obyektivlik prinsipləri təşkil edir ki, bu da problemin düzgün, hərtərəfli, elmi surətdə öyrənilməsini təmin edir. Dissertasiya mövzusu üzərində iş zamanı təhlil, müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdu. İşdə sosial-iqtisadi həyatla bağlı çoxsaylı faktlara müraciət olunduğu üçün statistik metoddan da istifadə olunmuşdu ki, bu da tədqiq edilən problemlə bağlı statistik göstəricilər əsasında regionların inkişaf dinamikası haqqında ümumiləşdirmələr aparmağa dəstək verir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyi ilk növbədə ondan ibarət idi ki, Azərbaycan tarixşünaslığında 1991-2008-ci illərdə Azərbaycan Respublikasında regionların inkişaf strategiyası məsələsi ilk dəfə tarixi baxımdan müstəqil tədqiqat problemi kimi araşdırılmışdı.

- Azərbaycan Respublikasında yeni regional inkişaf strategiyasının işlənib hazırlanması ideyası əsaslandırılmış və onun təkmilləşdirilməsi istiqaməti müəyyən edilmişdi.

- İlk dəfə olaraq bu problemlə bağlı olan yeni məsələlər, materiallar, çoxsaylı monoqrafiyalar, tarixçi, iqtisadçı, siyasətçilərin əsərləri, dövrü mətbuat materialları elmi dövriyyəyə cəlb edilmişdi.

- 1991-2008-ci illərdə ölkədə sənaye və kənd təsərrüfatının əvvəl tənəzzül, sonra durğunluq, daha sonra isə dinamik inkişaf mərhələsi xronoloji ardıcıllıqla tədqiq edilmişdi.

- İslahatlar strategiyasının istiqamətlərinin (özəlləşdirmə, maliyyə-vergi, torpaq, sahibkarlığın inkişafı) reallaşması ilə ölkə əhalisinin müxtəlif təbəqələrinin real bazar şəraitinə uyğunlaşması və sahibkarlar sinfinin yaranması arasındakı əlaqələr tədqiq olunmuşdu.

- Azərbaycan Respublikasının regionlarındakı müasir durumun Heydər Əliyev siyasətinin nəticəsi olduğu xüsusi vurğulanmışdı.

- Sosial-iqtisadi islahatların regionların inkişafı ilə sıx bağlılığı, regionların inkişaf tarixi, Azərbaycan dövlətinin bu sahəyə qayğısı məsələlərinə spesifik tarixi yanaşma müəyyən edilmiş və Azərbaycan tarixşünaslığına daxil edilmişdi.

**Tədqiqatın elmi dəyəri**. Tədqiqatın elmi dəyəri onun elmi yeniliyinə əsaslanır. Tədqiqatın xronoloji çərçivəsini təşkil edən 1991-2008-ci illər Azərbaycan Respublikasının müstəqillik əldə etdiyi, çətin dövlət quruculuğu proseslərinin həyata keçirildiyi, çoxsaylı problemlərlə üzləşdiyi dövrdü. Belə mürəkkəb bir dövrdə formalaşmış Azərbaycan Respublikasının bazar iqtisadiyyatı və regionların inkişaf strategiyasının tarixi təhlil əsasında tədqiqi xüsusi elmi əhəmiyyət kəsb edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiyada istifadə edilmiş faktiki materiallar, elmi nəticələr və ümumiləşdirmələr Azərbaycan Respublikasının müasir tarixinə, iqtisadi nəzəriyyə fənninə dair dərsliklər yazılarkən istifadə edilə bilər. Gələcəkdə həmçinin bazar iqtisadiyyatı, regionların sosial-iqtisadi inkişaf tarixinə dair əsərlər yazılarkən də bu tədqiqat köməyə gələ bilər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiyanın əsas məzmunu öz əksini AAK-ın siyahısında nəzərdə tutulan müxtəlif elmi nəşrlərdə çap olunmuş elmi məqalələrdə öz əksini tapmışdı və aspirantların konfranslarında səsləndirilmişdi.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdi.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə vəziyyəti, elmi yeniliyi və praktik əhəmiyyəti, tədqiqatın məqsəd və vəzifələri açıqlanır, tədqiqatın nəzəri metodoloji əsası haqqında məlumat verilir.

**"Bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi islahatların qanunvericilik bazasının yaradılması"** adlanan **birinci fəslin "Bazar iqtisadiyyatına keçid şəraitində respublika iqtisadiyyatında böhran və iqtisadi islahatların qanunvericilik bazasının yaradılmasının zəruriliyi"** adlı (1.1) yarımfəslində XX əsrin 80-ci illərinin ikinci yarısında SSRİ-də yaranan iqtisadi böhranın onun dağılmasından sonra daha da dərinləşməsi və bunun Azərbaycan Respublikasına təsiri məsələsindən bəhs edilir. Göstərilir ki, SSRİ-yə daxil olan respublikalarla iqtisadi əlaqələrin pozulması, 1992-ci ilin əvvəllərində heç bir zəmin olmadan qiymətlərin sərbəstləşdirilməsi iqtisadiyyatın iflic vəziyyətinə düşməsinə səbəb olmuşdu.[1] Ölkə əhalisinin 60-70%-i yoxsulluq həddində yaşayırdı. İqtisadiyyatı idarəetmə sistemi də pozulmuşdu. Bazar münasibətləri üçün çox mühüm şərtlər olan özəlləşdirmə, çoxukladlı təsərrüfatçılığa keçid səriştəsiz rəhbərlik üzündən çox zəif həyata keçirilirdi. Respublikanın iqtisadi və mənəvi potensialından istifadə edilmirdi.

1991-ci illə müqayisədə 1995-ci ildə respublikada sənaye məhsulunun həcm indeksi 91,1%-dən 30,1%-ə düşmüşdü.[2] Bu dövrdə geriləmə aqrar bölmədə də özünü göstərirdi. Kənd təsərrüfatı məhsullarının həcminin dinamikası 1991-ci ildən 1995-ci ilə qədər, demək olar ki, hər il aşağı düşürdü.[3] Ölkədə siyasi sabitlik olmadığına görə heç bir dövlət etibar edib ona kredit vermədiyindən, ancaq ölkənin öz resursları hesabına vəziyyətdən çıxmaq lazım gəlirdi. 1993-cü ilin iyununda Heydər Əliyevin Azərbaycanda hakimiyyətə yenidən qayıdışından sonra siyasi sabitliyə nail olundu. Respublika Prezidentinin 1994-cü il iyunun 15-də imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" və "İqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" fərmanlar ölkə iqtisa-

---

[1] Qaffarov T. Azərbaycan Respublikası 1991-2001, əsrə bərabər on il. Bakı, 2001, 203 s.
[2] Azərbaycan Respublikası Dövlət statistika komitəsi. Azərbaycan sənayesi. Bakı, 2002,17 s.
[3] Статистический Сборник Азербайджана. Баку , 1999, 27 с.

diyyatının dirçəldilməsinə, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün təminat yaradılmasına imkan vermiş oldu. Müdrik rəhbər dörd il sonra deyirdi ki: "Bu fərmanın və qəbul etdiyimiz başqa qərarların yerinə yetirilməsi nəticəsində qısa bir zamanda biz inflyasiyanı, bu gün cəsarətlə deyə bilərəm boğduq, özü də elə boğduq ki, artıq neçə ildir inflyasiya Azərbaycanda özünü göstərə bilmir".[1]

"**İqtisadi islahatların qanunvericilik əsaslarının yaradılması və inkişafı"** adlı ikinci yarımfəsildə (1.2) Azərbaycanda iqtisadi islahatların qanunvericilik əsaslarının yaradılması və bu sahədə görülən tədbirlərin inkişafı məsələlərindən bəhs edilir. Ulu öndər Heydər Əliyev iqtisadiyyatın ahəngdar inkişafının təmin edilməsində və iqtisadi idarəetmənin təkmilləşdirilməsində qanunvericilik mexanizminin həlledici roluna xüsusi əhəmiyyət verirdi. Valyuta ehtiyatlarının bazar vasitəsilə tənzimlənməsi üçün 1995-ci ilin fevralında "Valyuta bazarı" haqqında fərman verildi. 1995-ci ilin əvvəllərində milli valyuta-manat respublika ərazisində yeganə ödəniş vasitəsi elan olundu. İqtisadi sahədə aparılan islahatlar bazar iqtisadiyyatı mexanizminin bərqərar olmasına yönəldildi. İqtisadi islahatların qanunvericilik əsaslarının təsdiqi özəlləşdirmənin düzgün keçirilməsi, torpaq islahatının aparılması, islahatların idarəçilik aparatının yaradılması, yoxsulluqla mübarizə proqramının hazırlanmasında öz həllini tapmış oldu. Respublikamız qloballaşma prosesinə qoşuldu. Xarici dövlətlər ölkəmizə sərmayə qoymağa başladılar. İqtisadi islahatların həyata keçirilməsində yeni mülkiyyət formalarının, münasibətlərinin yaranması, dövlət mülkiyyətinin özəlləşdirilməsi əsas xətt idi. Azərbaycan parlamenti "Özəlləşdirmə" haqqında 1993-cü il 7 yanvar tarixli qanun qəbul etsə də, lakin bu qanundan irəli gələn vəzifələrin respublikada həyata keçirilməsi təmin olunmamışdı. Ancaq Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu sahədə irəliləyiş başlandı. Onun müəyyənləşdirdiyi iqtisadi inkişaf konsepsiyası əsasən üç mərhələdə - güclü dövlət tənzimlənməsi ilə böhrandan çıxmaq, iqtisadiyyatın sabitliyini təmin etmək, iqtisadiyyatın dirçəlişinə nail olmaq mərhələlərində həyata keçirilməsi nəzərdə tutulan islahatları təşkil edirdi. 1995-ci il 8 mart tarixli "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməli tədbirlər" haqqında Prezidentin verdiyi fərmanda Azərbaycan Respublikasında özəlləşdirmənin kompleks və hərtərəfli proqramının hazırlanması zəruri

---

[1] Respublika milli bankının yeni inzibati binasının açılışı mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Azərbaycan" qəz., Bakı, 1998, 8 oktyabr, №232

hesab edilir və bu proqramı hazırlamaq məqsədi ilə Dövlət Komissiyası yaradılması nəzərdə tutulurdu.[1]

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli fərmanı ilə ölkəmizdə dövlət əmlakının özəlləşdirilməsinin keyfiyyətcə ikinci mərhələsi başlanmış oldu. Bu mərhələdə özəlləşdirilməsi başa çatmamış müəssisə və obyektlərin özəlləşdirilməsinə başlanıldı.[2]

Tədqiqat zamanı məlum oldu ki, iqtisadi islahatları aqrar bölməyə şamil etmədən ölkənin dirçəlişinə nail olmaq mümkün deyildir. Azərbaycan Respublikasının Milli Məclisinin qəbul etdiyi 1995-ci il 18 fevral tarixli “Aqrar islahatların əsasları” haqqında qanun ölkənin aqrar sənaye kompleksinin əsas islahatlarının istiqamətlərini və onların hüquqi təminatını müəyyən etmiş oldu. Məqsəd aqrar bölməni böhrandan çıxarmaq, vəzifə isə torpaq və əmlak üzərində yeni mülkiyyət münasibətlərini formalaşdırılmaq idi.[3]

Kənd təsərrüfatı sahəsində keçirilməsi nəzərdə tutulan əsas islahatlardan biri də sovxoz və kolxozlarla bağlı idi. 1995-ci il 18 fevral tarixli “Sovxoz və kolxozların islahatı” haqqında qanun onların istifadəsindəki torpaqdan və əmlakdan pay almaq hüququ olan şəxslər tərəfindən təsərrüfatın hər hansı bir formasının seçilməsinə təminat verirdi.[4]

1996-cı ilin iyunun 24-də ölkə Prezidenti “Respublikada aqrar islahatların gedişi vəziyyəti və torpaq islahatı” haqqında qanun layihəsinin müzakirəsinə həsr olunmuş müşavirədə qeyd edirdi ki: “Bir Prezident kimi mən Azərbaycanın aqrar bölməsində, ümumiyyətlə, iqtisadiyyatda dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludu, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır.[5]

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra Respublika Milli Məclisinin qəbul etdiyi 1992-ci il 15 dekabr tarixli “Sahibkarlıq fəaliyyəti” haqqında qanun mülkiyyətin bütün formalarının bərabərliyi prinsipinin həyata keçirilməsi, müstəqil olaraq fəaliyyət sahələri seçilməsi və iqtisadi qərarlar qəbul edilməsi əsasında iqtisadi təşəbbüsün və işgüzarlığın geniş təzahür edilməsi üçün şərait yaradılmasına yönəldilmişdi.

---

[1] Hüseynova İ. M. Müstəqil Azərbaycan Dövlətinin Qurucusu. Bakı, Təhsil, 2004, 254-255 s.

[2] Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, III kitab, maddə 606

[3] “Aqrar islahatların əsasları haqqında” Azərbaycan Respublikasının qanunu. ”Azərbaycan” qəz., Bakı, 1995, 23 fevral. № 37

[4] Sovxoz və kolxoz islahatı haqqında Azərbaycan Respublikasının qanunu. “Azərbaycan” qəz., Bakı, 1995, 23 fevral. №37

[5] Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. 28 cilddə, VI c., Bakı: Azərnəşr, 1996, 474-783 s.

Ölkəmizdə sahibkarlığın inkişafının birinci təkamül mərhələsi hesab edilən 1991-1997-ci illərdə onun hüquqi bazasının ilk rüşeymləri yaranmağa başlamış oldu. Müasir sahibkarlığın 1997-2000-ci illəri əhatə edən ikinci mərhələsi kiçik və orta sahibkarlığa dövlət köməyi proqramında nəzərdə tutulmuş tədbirlərin icrası ilə, üçüncü mərhələsi isə 2002-ci ildə ölkə Prezidentinin yerli və xarici iş adamları ilə görüşündən və həmin ilin avqust-sentyabr aylarında onun inkişafı üçün imzalanan sənədlərdən start götürdü və hazırkı dövrə qədər davam edir.

İkinci fəsil **"Kənd təsərrüfatı və sənaye sahəsində islahatlar"** adlanır. Bu fəsildə Azərbaycan müstəqillik qazanandan, yəni 1991-ci ildən 2008-ci ilə qədər olan dövrdə ölkədə aqrar bölmədə, sənayedə aparılan islahatların mahiyyəti, məqsəd və vəzifələri açıqlanmışdı.

**"Kənd təsərrüfatı sahəsində islahatlar"** (2.1) adlanan yarımfəsildə Azərbaycanda müstəqillik illərində kənd təsərrüfatı sahəsində görülən işlər hərtərəfli təhlil edilmişdi.

Respublikada bazar münasibətlərinə keçid uzunmüddətli əmək təcrübəsi və intellektual potensialı ilə normal yaşamağın yolunu tapanların öz iş yerlərini itirməsi, bazar iqtisadiyyatı barəsində iqtisadi təfəkkürün zəifliyi, Çeçenistan hadisələri ilə bağlı şimal istiqamətində yolların bağlanması şəraitində baş verirdi. İllik geriləmə kənd təsərrüfatında 15-20%-ə çatırdı.[1] Aqrar bölməni bürüyən böhranın səbəblərini araşdırmaq, aqrar siyasət konsepsiyasının dövlət səviyyəsində hazırlanması, bu islahatı aparan dövlət qurumlarının təşkil edilməsi, aqrar siyasətin başlıca istiqamətlərini müəyyən edirdi. Dahi rəhbər kənd təsərrüfatının dirçəldilməsini həyati əhəmiyyətli məsələ hesab edirdi.

Azərbaycan Respublikasında 1993-cü ilin ikinci yarısından 1995-ci ilin birinci rübünə qədər olan müddətdə dövlətin öz əsasını hüquqi aktlarda tapan aqrar siyasəti hazırlandı. Azərbaycan iqtisadiyyatında, o cümlədən aqrar bölmədə mənfidən müsbətə doğru irəliləyişə yalnız 1996-cı ildən nail olunmağa başlanıldı.

Aqrar islahatların həyata keçirilməsi üçün möhkəm təmələ, prosesi tam əhatə edən və onun dinamikliyini təmin edən hüquqi bazaya ehtiyac olduğuna görə Respublika Prezidenti 13 avqust 1996-cı il tarixli "Torpaq islahatı" haqqında qanunun tətbiq edilməsi barədə fərman verdi. Bu

---

[1] Əbdülhəsənli T. İqtisadi dirçəlişimiz əhalinin sosial müdafiəsinin gücləndirilməsinə zəmin yaradır. "Azərbaycan" qəz., Bakı, 2000, 5 fevral. №27

fərmanla respublikada torpaq islahatlarının həyata keçirilməsi prosesi başlanmış oldu.[1]

Bu islahatların digər dövlətlərdə həyata keçirilən analoji islahatlardan əsas fərqləri torpağın pulsuz olaraq əvəzsiz verilməsi nəticəsində 3 milyon 300 mindən çox insanın torpaq mülkiyyətçisinə çevrilməsi, torpaqların ən yararlısı və keyfiyyətlisinin özəlləşdirilməsi, respublikanın ərazisində yaşayan bütün vətəndaşlara harada yaşamasından və kimliyindən asılı olmayaraq torpaqlardan istifadə və icarə hüququ verilməsi idi. Azərbaycanda 1997-ci il ölkənin kənd təsərrüfatı üçün köklü sosial-iqtisadi dəyişikliklər ili kimi onun tarixinə düşmüş oldu.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 22 mart tarixli "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" fərmanı, 19 aprel 1999-cu il tarixli "Sovxozların, kolxozların və kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan digər hüquqi və fiziki şəxslərin vergi borclarının silinməsi haqqında Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə" sərəncamı kənd təsərrüfatında islahatların ikinci mərhələsinin sürətləndirilməsinə hüquqi əsas verdi və kənddə bazar münasibətlərinin inkişafında mühüm rol oynadı.[2]

Azərbaycan Respublikasında uğurla həyata keçirilən torpaq islahatlarının bu mərhələsində respublikanın vahid torpaq fondunun 44,2%-i dövlət mülkiyyətində saxlanılmış, 31,4%-i bələdiyyə mülkiyyətinə, 24,4%-i xüsusi mülkiyyətə ayrılmışdı. Aqrar islahatların ikinci mərhələsində kənddə istehsal, sosial və bazar infrastrukturlarının formalaşmasına əsas diqqət yetirilmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü il 24 noyabr tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri" haqqında fərmanı ölkə iqtisadiyyatının dinamik inkişafının davam etdirilməsi, qəbul edilmiş dövlət proqramının icrasının sürətləndirilməsi, sahibkarlığın inkişafı sahəsində qarşıya çıxan maneələrin aradan qaldırılması, aqrar sektorda islahatların ikinci mərhələsinin və digər mühüm tədbirlərin həyata keçirilməsində böyük əhəmiyyətə malik olmuşdu.

XXI əsrin ilk illərində respublikada müşahidə olunan dinamik iqtisadi inkişafın ləng getməsi nəticəsində regional tarazlığın pozulması 2004-cü

---

[1] Torpaq islahatının tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. "Azərbaycan" qəz., Bakı, 1996, 13 avqust. №158

[2] Sovxozların, kolxozların və kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan digər hüquqi və fiziki şəxslərin vergi borclarının ləğv edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. "Azərbaycan" qəz., Bakı, 1999, 23 aprel. №91

ilin fevralın 11-də "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008)"nın qəbul edilməsini zərurətə çevirdi.

Kənd təsərrüfatı məhsulları istehsalı və emalının inkişaf etdirilməsi, bu sahəyə dövlətin maliyyə yardımı proqramının davam etdirilməsi, kredit ittifaqlarının dəstəklənməsi, fermerlərə yetişdirdikləri məhsulu satmaq üçün kömək göstərilməsi Dövlət Proqramının həyata keçirilməsinin mühüm təzahürü idi. Bununla yanaşı, ixraca yardım fondu, birjalar, topdan satış anbarları, auksionlar və aqroservis xidmətləri şəbəkəsinin yaradılmasına qayğı da ölkədə həyata keçirilən qlobal iqtisadi layihələrin məntiqi nəticəsi kimi qiymətləndirilməli idi. Azərbaycan Respublikasında aparılan məqsədyönlü iqtisadi siyasət nəticəsində kənd təsərrüfatı məhsullarının həcmi artaraq 1995-ci ildə 713,4, 2000-ci ildə 1060,7, 2003-cü ildə 1366,5, 2004-cü ildə 1476,6, 2005-ci ildə 1732,1, 2006-cı ildə 1969,7, 2007-ci ildə 2765, 2008-ci ildə 3308,4 mln. manat olmuşdu.[1]

Ölkədə aqrar islahatların keçirilməsi nəticəsində Azərbaycan kəndində yeni sahibkarlar və mülkiyyətçilər əmələ gəlmiş, milli iqtisadiyyatın formalaşmasında aqrar bölmə yenə də aparıcı sahələrdən birinə çevrilmişdi.

İkinci fəslin **"Sənaye sahəsində islahatlar"** adlı yarımfəslində (2.2) sənaye sahəsində aparılan islahatlardan, özəlləşdirmədən bəhs edilir.

90-cı illərin əvvəllərində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənaye məhsulu istehsalında da inkişaf tempi aşağı düşmüşdü. Dünya təcrübəsi göstərirdi ki, keçmiş SSRİ-də xammal respublikası kimi tanınmış, ittifaq dağıldıqdan sonra məhsul satdığı bazarları itirmiş Azərbaycan üçün iqtisadi böhrandan çıxmaq üçün daxili imkanlardan istifadə etməklə yanaşı xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi də ən səmərəli üsul hesab edilə bilərdi. Diqqəti iqtisadiyyatın prioritet sahələrinin, ilk növbədə neft sənayesinin inkişafına yönəltmək lazım idi ki, ondan əldə edilən gəlirlə digər sahələrin inkişafına nail olmaq mümkün olsun. Bu dövrdə neft sənayesi də ağır böhran keçirirdi. Quruda neft çıxarılmasının geniş miqyasda müasir texnologiya tələb etməsi, dənizdə isə dəniz suyunun dərinliyi ilə əlaqədar çətinliklər bu işi Qərbin böyük neft şirkətləri ilə birlikdə həyata keçirməyi tələb edirdi. Qərbin böyük neft şirkətləri ilə 1990-cı ildən başlanan danışıqlar 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə başa çatdı. Görülən tədbirlər öz səmərəsini

---

[1] Azərbaycanın Statistik göstəriciləri. Bakı, 2009, 449 s.

verdi. Artıq 2002-ci ilin oktyabrında Neft Fondunda 690 milyon dollara qədər vəsait toplanmışdı.[1]

Bu dövrdə sənayedə qeyri-dövlət bölməsinin payının artmasına da xüsusi diqqət yetirilmişdi. Özəlləşdirmə başlandığı vaxtdan 1998-ci ilə qədər Azərbaycanda 19342 kiçik, 936 orta və iri dövlət müəssisəsi və obyekti özəlləşdirilmişdi.[2]

Sənayedə dövlət müəssisələrinin özəlləşdirilməsi prosesi 1996-cı ildən başlamış, 2002-ci ilin yanvarına kimi 653 sənaye müəssisəsi satılmışdı. 1997-ci ildən 2002-ci ilin yanvarın 1-nə qədər ölkədə 5018 yeni sənaye müəssisəsi açılmış, xarici və müştərək müəssisələrin sayı 38,8% artmışdı.[3] Sənaye strukturunda baş verən dəyişikliklər ilk növbədə özəl sektorun xüsusi çəkisinin artmasında təzahür edirdi.

Heydər Əliyev tərəfindən əsası qoyulmuş, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bütün bu iqtisadi artım aparılmış islahatların nəticəsi kimi qiymətləndirilə bilərdi.

İqtisadi yüksəlişdə Azərbaycana qoyulan investisiyaların artmasının mühüm rolu olmuşdu. 1996-2000-ci illərdə Azərbaycana 5 milyard ABŞ dolları həcmində xarici investisiya qoyulmuşdu.

Statistik araşdırmalar göstərir ki, sənaye məhsulunun həcmi 1995-ci ildə 1771, 2000-ci ildə 3639, 2003-cü ildə 4982, 2004-cü ildə 5961, 2005-ci ildə 9291, 2006-cı ildə 15509, 2007-ci ildə 22441, 2008-ci ildə 29698 mln. manat artmışdı.[4]

**"Azərbaycan Respublikasının regionlarının müasir durumu Heydər Əliyev siyasətinin davamıdır"** adlı üçüncü fəsildə regionların enerji təhlükəsizliyi təminatı, iqtisadi yüksəlişi, xalqın maddi rifahının yüksəldilməsi məsələsi təhlil edilir.

Fəslin birinci bölməsi **"Regionların enerji təhlükəsizliyi təminatı" (3.1)** adlanır. Burada göstərilir ki, SSRİ dağılmazdan qabaq dövlətimizin milli təhlükəsizliyinin vacib komponentlərindən biri də enerji siyasəti idi. XX əsrin 70-80-ci illərində respublikanın müstəqil fəaliyyət göstərmək imkanı qazanmış energetika sistemi əhalinin və iqtisadiyyatın keyfiyyətli elektrik enerjisinə tələbatını tam ödəyirdi. SSRİ dağıldıqdan sonra yaranmış siyasi və iqtisadi böhran nəticəsində elektrik enerjisi istehsalında böyük problemlər yarandı. Dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı faydalı

---

[1] Hüseynova İ. M. Müstəqil Azərbaycan Dövlətinin Qurucusu. Bakı, Təhsil, 2004, s. 235
[2] Yenə orada. 270-271 s.
[3] Azərbaycanın Statistik göstəriciləri. Bakı, 2002, s. 455
[4] Azərbaycanın Statistik göstəriciləri. Bakı, 2009, s. 407

əlaqələr qurulmasına yönəldilmiş strateji xətt energetika sisteminə xarici sərmayələr cəlb edilməsinə imkan verdi.

Tikintisi hələ 1984-cü ildən yarımçıq qalmış Şəmkir SES-in davamı olan Yenikənd su hövzəsi və su elektrik stansiyasının inşasının, Mingəçevir SES-də yenidənqurma işlərinin başa çatdırılması, Abşeron yarımadasında yeni generasiya güclərinin 2000-ci ildə işə salınması ilə enerji sistemində yeni inkişaf mərhələsinin əsası qoyulmuş oldu.

Azərbaycan Respublikasında "Enerji resurslarından istifadə haqqında", "Elektroenergetika haqqında", "Elektrik və istilik stansiyaları haqqında" 2000-ci il 29 iyun "Əhalinin və iqtisadiyyatın enerjidaşıyıcıları ilə təminatının yaxşılaşdırılması tədbirləri haqqında", 2001-ci il 12 oktyabr "Energetika haqqında" qanunları bu sahədə görülən işlərin qanunvericilik bazasının möhkəmləndirilməsində mühüm əhəmiyyətə malik olmuşdu.

2004-cü ildə qəbul edilmiş Dövlət Proqramının icrası bölgələrdə elektrik enerjisi, qaz, su təchizatı sahəsində köklü dəyişikliklərə səbəb olmuşdu. XXI əsrin ilk illərində ölkə üzrə 8 modul tipli elektrik stansiyası tikilib istifadəyə verilmişdi ki, bunun 6-sı regionların payına düşürdü.

2001-2008-ci illərdə əhalinin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində də müvafiq tədbirlər həyata keçirilmişdi. 2003-cü ildə Azərbaycanda qazla təchizatın səviyyəsi 62% təşkil edirdisə, 2008-ci ildə bu rəqəm 85 %-ə çatmışdı. 2004-2008-ci illərdə regionlarda 6000 km yeni qaz xətləri çəkilmişdi.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı proqramının uğurla həyata keçirilməsi nəticəsində 2008-ci ildə iqtisadiyyatın 35% artımı elektrik enerjisi istehlakının strukturunda da öz əksini tapmışdı. Belə ki, respublika üzrə ildə adambaşına düşən elektrik enerjisi istehsalının miqdarı 2800 kVts-dan yuxarı olmuşdu ki, bu da orta hesabla inkişaf etmiş ölkələrin göstəricilərinə yaxın idi.[1]

**"Regionların iqtisadi yüksəlişi"** adlanan ikinci yarımfəsildə (3.2) Prezidentin regionlara göstərdiyi diqqət və qayğıdan bəhs edilir.

Heydər Əliyev irsinin davamçısı Prezident İlham Əliyev respublikanın hərtərəfli sosial-iqtisadi tərəqqisinə nail olmaq və tamamilə yeni strategiyanı və mikroiqtisadi konsepsiyanı reallaşdırmaq üçün 2004-cü il 11 fevral tarixli 24 nömrəli fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nı təsdiq etdi. Bu fərmandan irəli gələn vəzifələrin yerinə yetirilməsi nəticəsində bölgələrdən mərkəzə miqrasiya meylləri azalmış, ölkənin

[1] Azərbaycan Respublikasının energetika sistemi. Bakı, 2009, 168 s.

iqtisadi inkişafı sürətlənmiş, əhalinin bölgələrdə işgüzar fəallığı yüksəlmiş, rifah halı yaxşılaşmışdı.

Regionların sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən səmərəli tədbirlər sahibkarlığın regional strukturunda da əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdu. Əgər əvvəllər sahibkarlıq subyektlərinin mütləq əksəriyyəti Bakı şəhərində cəmləşirdisə, artıq 2006-cı ildə fəaliyyət göstərən müəssisələrin 54,5% rayonların payına düşürdü. Dövlət Proqramının yerinə yetirilməsi nəticəsində ölkədə 741 min iş yeri açılmışdı ki, onun 80%-i regionlarda idi. Respublikada 2008-ci ilə qədər 463 emal, 782 tikinti, 617-ə yaxın kənd təsərrüfatı, 1000-dən çox ticarət və xidmət müəssisəsinin də 40%-i regionlarda açılmışdı. Ölkədə aparılan regional siyasət nəticəsində regionların dinamik inkişafı davamlı xarakter almışdı.

"**İqtisadi inkişaf dövlətçiliyin və xalqın maddi rifahının əsasıdır**" adlanan yarımfəsildə (3.3) 1993-cü ilin II yarısından başlayaraq aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində respublikada ictimai-siyasi sabitliyin təmin olunması, Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməlinin qoyulması, Azərbaycan üçün həyati əhəmiyyəti olan "Əsrin müqaviləsi"nin imzalanması, həm respublikanın daxilində sabitliyin bərqərar olunması, həm də xarici uğurların əldə edilməsi məsələlərindən bəhs edilir.

Müstəqillik illərində sənayenin inkişafı ilə yanaşı, kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirilmiş, bu sahə ilə əlaqədar 40-dan çox hüquqi sənəd qəbul edilmiş, onların əsasında aparılan islahatların yekunu olaraq 872 min kəndli ailəsinə 1372,8 min hektar torpaq sahəsi verilmiş, ölkədə 2600-dən çox kəndli-fermer təsərrüfatı fəaliyyət göstərməyə başlamışdı. İstehsal edilən kənd təsərrüfatı məhsullarının 99,1%-i məhz onların payına düşürdü.[1]

Respublikamız XXI əsrin ilk illərindən başlayaraq iqtisadi artım tempinə görə dünyada qabaqcıl yerlərdən birini tutmağa başlamışdı. O cümlədən adambaşına düşən ümumi daxili məhsulun həcmi 2004-cü ildə 1060,3 ABŞ dolları təşkil etmişdisə, 2008-ci ildə isə 145905,3 ABŞ dollarına çatmışdı. Azərbaycan adambaşına düşən ümumi daxili məhsulun həcminə görə 181 ölkə arasında 123-cü yerdən 76-cı yerə keçmişdi.[2]

Tədqiq olunan dövrdə Azərbaycan Respublikası hökumətinin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri də yoxsulluğun azaldılması ilə bağlı strategiyanı təkmilləşdirməkdən ibarət idi. Azərbaycan Respublikası

---

[1] Regional inkişafın beş ili-Uğurlu siyasət. Bakı, 2009, 14 s.
[2] Yenə orada, 36 s.

Prezidentinin “2003-2005-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişafı Dövlət Proqramı” həmin məqsədlərə çatmağa böyük stimul vermişdi. Yoxsulluğun azaldılması istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində yoxsulluq səviyyəsi 2002-2008-ci illərdə 3 dəfə azalaraq 40,2%-dən 13,2%-dək enmişdi.[1]

Yeni iş yerlərinin açılması, regionların iqtisadi potensialından daha səmərəli istifadə olunmasına yönəlmiş tədbirlərin görülməsi ölkə əhalisinin məşğulluq və həyat səviyyəsinin yüksəlməsinə imkan verirdi.

Dissertasiyanın **nəticəsində** tədqiqata yekun vurulmuş, lazımi ümumiləşdirilmələr aparılmış, nəticələr çıxarılmış, müəyyən təklif və tövsiyələr verilmişdi.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdı.**

1. 1995-2000-ci illərdə Azərbaycanda iqtisadi islahatların qanunvericilik bazasının yaradılması. Pedaqoji Universitet xəbərləri. Humanitar elmlər seriyası. №4, 2008, 42-46 s.
2. 1995-2000-ci illərdə Azərbaycanda kənd təsərrüfatı sahəsində islahatların qanunvericilik bazasının yaradılması və iqtisadi artım. Pedaqoji Universitet xəbərləri. Humanitar elmlər seriyası. №5, 2008, 57-63 s.
3. 1991-2003-cü illərdə Azərbaycanda ağır sənaye sahəsində islahatların qanunvericilik bazasının yaradılması və iqtisadi artım. Tarix və onun problemləri №3, 2009, 186-192 s.
4. Развитие електроенергетической системы в Азербайджанской Республике. Культура народов причерноморья №194, 2010, 144-145 с.
5. Azərbaycan Respublikası regionlarının iqtisadi yüksəlişində İlham Əliyevin rolu. Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları. №1. 2011, 290-292 s.
6. 2003-2006-cı illərdə Azərbaycanda aqrar islahatların ikinci mərhələsinin qanunvericilik bazasının təkmilləşdirilməsi. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu. Elmi əsərlər 2010, cild 32, 136-139 s.
7. 1993-2008-ci illərdə Azərbaycan Respublikasında sosial-iqtisadi inkişaf və xalqın maddi rifahının yüksəldilməsi. Tarix və onun problemləri №4, 2011, 151-155 s.

---

[1] Azərbaycanın Statistik göstəriciləri. Bakı, 2009. 47 s.

З.Г.Салимов

# «СТРАТЕГИЯ РАЗВИТИЯ РЕГИОНОВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1991-2008)»


## РЕЗЮМЕ

Диссертация посвящена историю социально-экономического развития регионов Азербайджанской Республики в 1991-2008 годах. Это тема впервые исследована в Азербайджанской историияведении на основе комплексного подхода фактам и событиям.

В **введении** диссертации раскрывается актуальность темы, источник базы проблем, уровень исследования, научное новшество и практическое значение, цель и задача, и дается обзор методологической основы данной темы.

В первой главе, названной **«Создание законотворческой базы социально-экономических преобразований в условиях рыночной экономики в начале 90-х годах XX столетия»** раскрывается причина кризисных ситуаций в экономике Азербайджана, указывается необходимость обязательного перехода на рыночную экономику, объясняется важность незамедлительного создания законотворческих основ. Ярко раскрывается неутомимая деятельность Г. Алиева в этом вопросе после возвращения в руководство Азербайджанской Республике.

Во второй главе названной **«Преобразования в области сельского хозяйства и промышленности»** раскрывается значение преобразований в период от 1991 по 2008 год, то есть, после завоевания независимости Азербайджана.

В третьей главе названной **«Настоящее положение Азербайджанской Республики есть результат дальновидной политики общенационального лидера Г.Алиева»** раскрывается обеспечение энергетической безопасности, экономический подъём, повышения социально-экономического положения населения Азербайджана, дается подробное объяснение успешного внедрения в жизнь идеи Г. Алиева, нынешним президентом Азербайджанской Республики И. Алиевым.

В **конце** диссертации сделаны нужные выводы из данных проблем и задач, обобщены результаты и даны предложения.

**Z.Q.Salimov**

## "REGİONS DEVELOPMENT STRATEGY İN AZERBAİJAN REPUBLİC (1991-2008)"

## SUMMARY

The dissertation work investigated in the context of the history of social economy of the regions of the Republic of Azerbaijan in 1991-2008. The dissertation theme investigated, firstly, in the frame of complex approach to the facts and to the phenomenon in Azerbaijan historism.

It explored the methodological basics, the aim and the tasks of the inverstigation, the scientifical newness and practical importance of the work, the sources of the basics of problem and the invesitigation positions of the dissertation work, topicality of the theme in the introduction of the dissertation.

The first heading called **"The formation of the legislative basic of social economical reforms in market economy".** It investigated in this heading, the causes of Azerbaijan economy's crisis in the begining of 90-ties in XX century, necessity in transformation into market economy, importance in the formation of the legislative basic of the economical reforms. And it investigated Haydar Aliyev's merit after his return to authority.

The second heading called **"The reforms in agriculture and in industry".** It investigated in this heading, the essence of the reforms in agriculture and in industry after Azerbaijan independency, from 1991 to 2008.

The third heading called **"The modern condition of Azerbaijan Republic is extension of Haydar Aliyev's politics**". It investigated in this heading, the procurity of the energy security of the regions, economical growth, social and material increases of the nation and successful implementing Haydar Aliyev's politics by Ilham Aliyev, the President of the Republic of Azerbaijan.

It given important generalisations from the headings and several recommendations in **conclusion**.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ ИМЕНИ А. А. БАКИХАНОВА**

***На правах рукописи***

**ЗАУР ГАФФАР оглы САЛИМОВ**

# СТРАТЕГИЯ РАЗВИТИЯ РЕГИОНОВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1991-2008)

**Специальность: 5503.02 – История отечества**

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**ВАКУ – 2014**